# Milli musiqi bayramı

**Sentyabrın 18-də Azərbaycanda Milli Musiqi Günü keçirilir. İncəsənət aləmində mühüm hadisəyə çevrilən bu bayram görkəmli bəstəkar, milli musiqi mədəniyyətimizin qurucularından biri, klassik musiqinin inkişafında müstəsna xidmətləri olan Üzeyir Hacıbəyovun doğum günü ilə əlaqədardır.**

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 18 sentyabr 1885-ci ildə Ağcabədidə anadan olub. Atası Əbdülhüseyn bəy dövrünün ziyalı şəxslərindən olub. Xan qızı Xurşidbanu Natəvanın mirzəsi olaraq çalışıb. Anası Şirinbəyim xanım isə Qarabağda məşhur Əliverdibəyovlar nəslindən olub. Üzeyir Hacıbəyli ilk təhsilini Şuşada ikillik rus-türk məktəbində alıb, 1890-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsilini davam edib. Seminariya bəstəkarın dünyagörüşünün formalaşmasına, həmçinin onun Avropa musiqi klassiklərinin əsərləri ilə tanış olmasına imkan yaradıb. Bu dövrdə Üzeyir bəy bariton və skripkada çalmağı, xalq mahnı nümunələrini nota köçürməyi öyrənib. O, Qori Müəllimlər Seminariyasında Müslüm Maqomayevlə tanış olub. Seminariyanı bitirdikdən sonra Üzeyir Hacıbəyli 1904-cü ildə Cəbrayıl qəzasında müəllimlik etməyə başlayıb. 1905-ci ildə Bakıya gələrək "Həyat" qəzetində tərcüməçi işləyib və bu hadisə onun ədəbi-publisistik fəaliyyətinin başlanğıcı sayılır.

1911-ci ildə musiqi təhsilini inkişaf etdirmək məqsədilə bəstəkar Moskvaya gedib və görkəmli musiqiçi İlyinskinin xüsusi musiqi kursunda təhsil alıb. Ancaq maddi çətinliklər səbəbindən təhsilini yarıda qoyaraq Bakıya qayıdıb. O, əvvəlcə "Nicat" cəmiyyətinin teatr truppası, 1914-cü ildə isə qardaşları ilə birlikdə fəaliyyətini davam etdirib.

1918-ci ilin mart soyqırımından sonra Üzeyir bəy truppası illə birlikdə İrana səfər edib və burada tamaşalar hazırlayıb. Sentyabrın 15-də Bakının erməni, rus-bolşevik, ingilis işğalından azad olunmasından sonra Vətənə qayıdıb. Bu dövrdə bəstəkar "Azərbaycan" qəzetində publisist-redaktor olaraq işləyib. Cümhuriyyət Himnini də elə məhz bu dövrdə yazıb.

Üzeyir bəy Hacıbəyli bədii yaradıcılığa publisistika ilə başlayıb. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində müxtəlif təxəllüslərlə dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirib.

1918-ci il yanvarın 25-də dahi bəstəkarın "Leyli və Məcnun" operasının səhnələşdirilməsi ilə müsəlman Şərqində opera sənətinin əsası qoyulub. 1937-ci il aprelin 30-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulan "Koroğlu" operası Ü.Hacıbəyli yaradıcılığının zirvəsi hesab edilir. Müəllif bu əsərində klassik opera qaydaları əsasında bitkin ariyalar, kütləvi xor səhnələri yarada bilib. Gənc bəstəkar bir-birinin ardınca "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid banu", "Əsli və Kərəm", "Harun və Leyla" muğam operalarını yazıb. Şərqdə ilk operettanın yaranması da Üzeyir bəyin adı ilə bağlıdır. "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları onu çox məşhurlaşdırıb.

O, 300-dən çox Xalq mahnısını toplayıb nota alıb, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor üçün əsərlər yazıb. Azərbaycan Xalq Cümhuriyyətinin və müstəqil Azərbaycanın dövlət himninin musiqisi Üzeyir bəyə məxsusdur. Ə.Cavadın sözlərinə bəstələdiyi "Çırpınırdın, Qara dəniz" mahnısı təkcə Azərbaycanda deyil, Türkiyədə də çox məşhurdur. "Sevgili canan", "Sənsiz" romansları isə Azərbaycan musiqi xəzinəsinin ən dəyərli incilərindən hesab olunur.

Üzeyir Hacıbəyli Bakı Musiqi Texnikumuna, Azərbaycan Elmlər Akademiyasının İncəsənət İnstitutuna, Azərbaycan Dövlət Konservatoriyasına, Bəstəkarlar İttifaqına rəhbərlik edib. İlk xalq çalğı alətləri orkestrini, Azərbaycan Dövlət Xorunu yaradıb.

Tələbələrinə ata qayğısı göstərən Üzeyir bəyin tədris prosesinə maraqlı yanaşması vardı. Müəllim tələbələrin mühazirəyə gəlməməsindən şikayətlənəndə Üzeyir bəy təbəssümlə soruşarmış: "Əminsinizmi ki, sizin mühazirələriniz zamanı auditoriyanın boş



qalmasında təkcə tələbələr günahkardır?".

Üzeyir Hacıbəyovun elmi-nəzəri məqalələri, "Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyası milli musiqi elmimizin inkişafına qiymətli töhfədir. Bəstəkar deyirdi: "Musiqini elə yazmaq lazımdır ki, onu zövqü korlanmış bir qrup adam deyil, bütün xalq başa düşsün". Üzeyir bəy nadir şəxsiyyətlərdən biridir ki, həm bəstəkar olub, həm də publisist. "Ü", "Filankəs", "Behmankəs" və digər gizli imzalarla felyetonlar yazıb. Onun "Ordan-burdan" başlığı altında dərc olunan felyetonları öz dövrü üçün çox dəyərli idi.

Dahi bəstəkar dövrünün ən yüksək mükafatlarına və fəxri adlarına, o cümlədən SSRİ Xalq artisti adına layiq görülüb. O, həyatının son illərində "Firuzə" operası üzərində işləyib, bu operadan təkcə Firuzənin ariyası qalıb. Çağdaş Azərbaycan musiqisinin banisi, korifey bəstəkar Üzeyir Hacıbəyli 1948-ci il noyabrın 23-də ürək çatışmazlığı səbəbi ilə dünyasını dəyişib. Onun dəfnində görünməmiş izdiham yaşanıb, cənazəsi Bülbülün ifasında "Sənsiz" romansının sədaları altında qaldırılıb və Fəxri Xiyabanda dəfn olunub.

Dahi bəstəkar haqqında "Üzeyir ömrü", "Üzeyir Hacıbəyov", "Əbədi iftixarımız" filmləri çəkilib. Bakı Musiqi Akademiyası, Azərbaycan Bəstəkarlar İttifaqının möhtəşəm salonu, Azərbaycan Dövlət simfonik orkestri, paytaxtımızın mərkəzi küçələrindən biri onun adını daşıyır. Bakıda memorial ev-muzeyi fəaliyyət göstərir. Bakı Musiqi Akademiyasının qarşısında heykəli ucaldılıb.

Üzeyir Hacıbəyli deyirdi: "Niyə avropalıların arasından alim, həkim, ədiblər çıxır, bizim aramızdan qoçular?! Fərq bizim zatımızdadırmı?! Xeyr, insan hər yerdə insandır. Fərq harda nəyə imkan yaradılmasındadır. Harada hansı fəaliyyətə meydan yaradılıbsa, o sahədə istedadı olan adamlar meydana çıxır".

Ulu öndər Heydər Əliyevin Azərbaycan musiqisi, görkəmli musiqi xadimləri, onların yaradıcılığı, əsərləri, xidmətləri haqqında irəli sürdüyü fikirlər, ideyalar onun nitqlərində, çıxışlarında geniş əksini tapıb. Heydər Əliyevin Üzeyir Hacıbəylinin yaradıcılığı, əsərləri, milli üslubu, yenilikləri, musiqi tarixindəki mövqeyi və xidmətləri haqqında maraqlı fikir və ideyaları Şərq-Qərb musiqi-mədəni əlaqələri müstəvisində olduqca mühüm missiyanı yüksək milli-humanist maraqlar, analitik və elmi-obyektiv yanaşma səviyyəsində yerinə yetirir.

2009-cu ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 18 sentyabr tarixi Milli Musiqi Günü olaraq təsis edilib.

Milli Musiqi Günü geniş ictimaiyyətin Azərbaycan musiqisinin zənginliyi, müasir inkişafı və tarixi barədə maarifləndirilməsi üçün şərait yaradır. Bu, həm də Azərbaycan musiqi mədəniyyətinin inkişafı, qorunması və təşviqi baxımından müstəsna əhəmiyyətə malikdir. Üzeyir Hacıbəyli kimi dəyərli musiqiçilərin irsini yaşatmaqla yanaşı, bu gün Azərbaycan musiqisinin zənginliyini və mədəni dəyərlərini geniş auditoriyaya tanıdır.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2024.- 18 sentyabr (№ 203).- S.7.